| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **29.08.2013** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **973** |
| **ADI** | **Sosial müavinətlərin məbləğinin artırılması haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Respublika Qəzeti (Dərc olunma tarixi: 30-08-2013, Nəşr nömrəsi: 188), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2013, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 916)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **01.09.2013** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **080.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **13201308290973** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **31.08.2013** |

**Sosial müavinətlərin məbləğinin artırılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin rifah halını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Sosial müavinətlərin məbləği aşağıdakı kimi müəyyən edilsin: [1]

1.1. Aylıq müavinətlər:

1.1.1. Yaşa görə müavinət — *180* manat;[2]

1.1.2. Əlillik “ümumi xəstəlik”, “hərbi xidmət dövründə xəstələnmə”, “əmək zədəsi və peşə xəstəliyi”, “hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar”, “Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar” səbəbindən baş verdikdə əlilliyə görə müavinət:

*orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 220 manat*[3]

*orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 180 manat*[4]

*orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 120 manat;*[5]

1.1.3. əlillik “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar” və “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar” səbəbindən baş verdikdə:

*orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 220 manat* [6]

*orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 180 manat*[7]

*orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 120 manat;*[8]

1.1.4. əlillik “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və ya “hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar” səbəbindən baş verdikdə:

*orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 220 manat*[9]

*orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 180 manat*[10]

*orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə — 120 manat;*[11]

~~1.1.5. sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət — *200* manat;~~[12]

1.1.6. ailə başçısını itirməyə görə müavinət — *100* manat;[13]

~~1.1.7. əmək pensiyası almaq hüququ olmayan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslərə, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, 1941-1945-ci illərdə keçmiş sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş, müharibə illərində orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə, başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində iştirak etmiş şəxslərə və keçmiş SSRİ silahlı qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri kimi iştirak etmiş şəxslərə müavinət — *55* manat;~~[14]

1.1.8. müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət — *120* manat;[15]

1.1.9. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət — *120* manat;[16]

1.1.10. bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət — *70* manat;[17]

1.1.11. bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət:

1.1.11.1. şəhid uşaqlarına — *21* manat; [18]

1.1.11.2. *müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş*, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına — *15* manat;[19]

*1.1.12. övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə müavinət:* [20]

*1. övladlığa götürülən uşağa (bu yarımbəndin ikinci abzasında qeyd olunan uşaqlar istisna olmaqla) görə – 200 manat;*

*2. övladlığa götürülən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə – 600 manat.*[21]

1.2. Birdəfəlik müavinətlər:

1.2.1. radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət — *237* manat;[22]

1.2.2. uşağın anadan olmasına görə müavinət — *300* manat;[23]

1.2.3. dəfn üçün müavinət — *350* manat.[24]

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 dekabr tarixli 567 nömrəli Fərmanı, "Əhalinin bəzi kateqoriyalarının sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 dekabr tarixli 568 nömrəli Fərmanı (3-cü hissəsi istisna olmaqla), "Aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 sentyabr tarixli 324 nömrəli Fərmanı (3-cü hissəsi istisna olmaqla), "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 514 nömrəli Fərmanının 1-ci hissəsi ləğv edilsin.

**4.** Bu Fərman 2013-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 avqust 2013-cü il
973

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 17 mart 2014-cü il tarixli **130** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 18 mart 2014-cü il, 57 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 3, maddə 251**)
2. 19 yanvar 2016-cı il tarixli **747** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 yanvar 2016-ci il, 13 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-ci il, 1, maddə 69**)
3. 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**)
4. 15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**)
5. 24 noyabr 2020-ci il tarixli **1192** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 noyabr 2020-ci il, 247 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1361**)
6. 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**)
7. 20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 19 yanvar 2016-cı il tarixli **747** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 yanvar 2016-ci il, 13 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-ci il, 1, maddə 69**) ilə 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılmışdır.

[2] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.1-ci yarımbənddə "**60**" rəqəmləri "**73**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.1-ci yarımbənddə "**73**" rəqəmləri "**130**" rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.1-ci yarımbənddə "**130**" rəqəmləri "**180**" rəqəmləri ilə əvəz edilmişdir

[3] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.2-ci yarımbəndin ikinci abzasında "**I dərəcə əlilliyi olan**" sözləri **"orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş** " sözləri ilə əvəz edilmişdir.

[4] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.2-ci yarımbəndin üçüncü abzasında "**II dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[5] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.2-ci yarımbəndin ikinci abzasında "**67**" rəqəmləri "**82**" rəqəmləri ilə, üçüncü abzasında "**50**" rəqəmləri "**61**" rəqəmləri ilə, dördüncü abzasında "**43**" rəqəmləri "**52**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.2-ci yarımbəndin ikinci — dördüncü abzasları yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~I qrup əlillərə — *82* manat~~
~~II qrup əlillərə — *61* manat~~
~~III qrup əlillərə — *52* manat;~~

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.2-ci yarımbəndin ikinci abzasında "**150**" rəqəmləri "**220**" rəqəmləri ilə, üçüncü abzasında "**130**" rəqəmləri "**180**" rəqəmləri ilə, dördüncü abzasında "**110**" rəqəmləri "**120**" rəqəmləri ilə əvəz edilmişdir.

18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.2-ci yarımbəndin dördüncü abzasında "**III dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[6] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.3-cü yarımbəndin ikinci abzasında "**I dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş** " sözləri ilə əvəz edilmişdir.

[7] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.3-cü yarımbəndin üçüncü abzasında "**II dərəcə əlilliyi olan**" sözləri **"orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilm**iş" sözləri ilə əvəz edilmişdir.

[8] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.3-cü yarımbəndin ikinci abzasında "**83**" rəqəmləri "**101**" rəqəmləri ilə, üçüncü abzasında "**66**" rəqəmləri "**81**" rəqəmləri ilə, dördüncü abzasında "**60**" rəqəmləri "**73**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.3-cü yarımbəndin ikinci — dördüncü abzasları yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~I qrup əlillərə — *101* manat~~

~~II qrup əlillərə — *81* manat~~

~~III qrup əlillərə — *73* manat;~~

-

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.3-cü yarımbəndin ikinci abzasında "**150**" rəqəmləri "**220**" rəqəmləri ilə, üçüncü abzasında "**130**" rəqəmləri "**180**" rəqəmləri ilə, dördüncü abzasında "**110**" rəqəmləri "**120**" rəqəmləri ilə əvəz edilmişdir.

18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.3-cü yarımbəndin dördüncü abzasında "**III dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[9] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.4-cü yarımbəndin ikinci abzasında "**I dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[10] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.4-cü yarımbəndin üçüncü abzasında "**II dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi m üəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[11] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.4-cü yarımbəndin ikinci abzasında "**77**" rəqəmləri "**94**" rəqəmləri ilə, üçüncü abzasında "**66**" rəqəmləri "**81**" rəqəmləri ilə, dördüncü abzasında "**50**" rəqəmləri "**61**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.4-cü yarımbəndin ikinci — dördüncü abzasları yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~I qrup əlillərə — *94* manat~~

~~II qrup əlillərə — *81* manat~~

~~III qrup əlillərə — *61* manat;~~

-

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.4-cü yarımbəndin ikinci abzasında "**150**" rəqəmləri "**220**" rəqəmləri ilə, üçüncü abzasında "**130**" rəqəmləri "**180**" rəqəmləri ilə, dördüncü abzasında "**110**" rəqəmləri "**120**" rəqəmləri ilə əvəz edilmişdir.

18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.4-cü yarımbəndin dördüncü abzasında "**III dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[12] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.5-ci yarımbənddə "**67**" rəqəmləri "**82**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.5-ci yarımbənddə "**82**" rəqəmləri "**150**" rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.5-ci yarımbənddə "**150**" rəqəmləri "**200**" rəqəmləri ilə əvəz edilmişdir.

18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.5-ci yarımbənd ləğv edilmişdir.

[13] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik

**Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.6-cı yarımbənddə “**55**” rəqəmləri “**68**” rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.6-cı yarımbənddə “**68**” rəqəmləri “**80**” rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.6-cı yarımbənddə “**80**” rəqəmləri “**100**” rəqəmləri ilə əvəz edilmişdir.

[14] 17 mart 2014-cü il tarixli **130** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 18 mart 2014-cü il, 57 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 3, maddə 251**) ilə 1.1.7-ci yarımbəndində “**37**” rəqəmləri “**45**” rəqəmləri ilə əvəz edilmişdir.

5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.7-ci yarımbənddə “**45**” rəqəmləri “**55**” rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.7-ci yarımbənd ləğv edilmişdir.

[15] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.8-ci yarımbənddə “**55**” rəqəmləri “**68**” rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.8-ci yarımbənddə “**68**” rəqəmləri “**100**” rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.8-ci yarımbənddə “**100**” rəqəmləri “**120**” rəqəmləri ilə əvəz edilmişdir.

[16] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.9-cu yarımbənddə “**50**” rəqəmləri “**61**” rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.9-cu yarımbənddə “**61**” rəqəmləri “**100**” rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.9-cu yarımbənddə “**100**” rəqəmləri “**120**” rəqəmləri ilə əvəz edilmişdir.

[17] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.10-cu yarımbənddə “**45**” rəqəmləri “**55**” rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.10-cu yarımbənddə “**55**” rəqəmləri “**70**” rəqəmləri ilə əvəz edilmişdir.

[18] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.11.1-ci yarımbənddə “**17**” rəqəmləri “**21** ” rəqəmləri ilə əvəz edilmişdir.

[19] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.1.11.2-ci yarımbənddə “**12**” rəqəmləri “**15**” rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.1.11.2-ci yarımbənddə “**müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş**” sözləri “**müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş**” sözləri ilə əvəz edilmişdir.

[20] 18 avqust 2021-ci il tarixli **1430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 20 avqust 2021-ci il, 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 922**) ilə 1.1.12-ci yarımbənddə (hər iki halda) “**sağlamlıq imkanları məhdud 18 yaşınadək**” sözləri “**18 yaşınadək əlilliyi müəyyən edilmiş** ” sözləri ilə əvəz edilmişdir.

[21] 24 noyabr 2020-ci il tarixli **1192** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 26 noyabr 2020-ci il, 247 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1361**) ilə 1.1.11.2-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 1.1.12-ci yarımbənd əlavə edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.1.12-ci yarımbəndin 1-ci abzasında “**160**” rəqəmləri “**200**” rəqəmləri ilə, 2-ci abzasında “**480**” rəqəmləri “**600**” rəqəmləri ilə əvəz edilmişdir.

[22] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.2.1-ci yarımbənddə “**195**” rəqəmləri “**237**” rəqəmləri ilə əvəz edilmişdir.

[23] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.2.2-ci yarımbənddə “**90**” rəqəmləri “**109**” rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.2.2-ci yarımbənddə “**109**” rəqəmləri “**200**” rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.2.2-ci yarımbənddə “**200**” rəqəmləri “**300**” rəqəmləri ilə əvəz edilmişdir.

[24] 5 iyul 2018-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, I kitab, maddə 1454**) ilə 1.2.3-cü yarımbənddə "**120**" rəqəmləri "**146**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 640**) ilə 1.2.3-cü yarımbənddə "**146**" rəqəmləri "**300**" rəqəmləri ilə əvəz edilmişdir.

20 dekabr 2021-ci il tarixli **1496** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 dekabr 2021-ci il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1361**) ilə 1.2.3-cü yarımbənddə "**300**" rəqəmləri "**350**" rəqəmləri ilə əvəz edilmişdir.